
Orxan Məmmədli
Bir damlada
gizlənən
həyat

# Ərxan Məmmədli.

## Bir damlada Gizlənən Həyat

ƏMC nəşriyyat. 2011.

Edited by VusalNazimoglu

© Mammadli. Ə. H. 2011

# Ön Söz

İkinci yazım olan "**Bir damlada gizlənən həyat**" da həqiqətəndə hər damlasında bir həyatın gizləndiyi hikmətinə inandığım su ilə bağlıdır. Birinci yazım olan "**Həyata fərqli baxış**"ın sonundakı bir fikirdən yola çıxaraq yazdığım bu yazım adətən ilk yazımın ardı, onun tamamlayıcısı kimidir. Sizlərə bu yazımı oxuyarkən xoş dəqiqələr arzusu ilə...

Orkhan Mammadli.

# Su qədər ömrün olsun...

...hər dəfə bir stəkan suyu içib qutardıqdan sonra bu kəlimə ağlıma gəlir və bu ifadədə olan mənaya varmaq istəyirəm. Dərindən düşündükdə bu hikmətli və o qədərdə dərin mənanın əslində bu ifadədə yox, elə suyun özündə gizləndiyinin fərqinə varıram. Su...bu kəliməni düşündükcə beynimin dərinliyindəki düşüncələr bir yerə toplanaraq su damlası kimi dilimin üzərində toplanıb dodaqlarımın arasında itirdilər. Bütün bədənim tərləməyə və alnımda xırdaca tər damlaları əmələ gəlməyə başlamışdı. Sanki bütün su damlaları onların haqqında düşündüyümün fərqinə varıb, məni əhatə etməyə çalışırdılar. Amma yanılmışdım...Yüksək hərarət içində temperaturumu ölçəndə qısaca yuxuya dalmışdım. Xəstə idim...bayaqdan bəri hikməti haqqında düşündüyüm bir stəkan soyuq suyu içdiyimdən soyuqlayıb, boğazım gəlmişdi.

Qəribədir axı su həyat mənbəyidir. Selləri, sunamiləri, dənizdə boğulan insanları gözümün qarşısında canlandırdıqda bunun

O QƏDƏRDƏ BELƏ OLMADIĞI QƏNAƏTINƏ GƏLDIM. HƏQIQƏTƏNDƏ TƏBIƏTDƏ BIZI ƏHATƏ EDƏN HƏR ŞEYIN MÜƏYYƏN ÖLÇÜDƏ XEYRI, ONDAN AZ VƏ YA ÇOX DƏRƏCƏSININ ISƏ ZIYANI OLA BILƏR. ANCAQ SU NƏ QƏDƏRDƏ BIR HƏYATIN YARADICISI, DIGƏRININ ISƏ MƏHVEDICISI OLSADA ONDA HƏQIQƏTƏN DƏ DƏRIN BIR HIKMƏT GIZLƏNIRDI. YAŞADIĞIMIZ YER KÜRƏSININ ÖZ ILKIN INKIŞAF MƏRHƏLƏSINDƏ DƏ ILK SUYUN FORMALAŞMASIDA NƏLƏRI ISƏ DEYIRDI. SANKI, SU INSAN BƏDƏNINDƏKI DAMARLAR KIMI YERIN DAMARLARINI ƏVƏZ EDIRDI. YARANDIĞI ILK GÜNDƏN BU GÜNƏ KIMI HƏCMINDƏN BIR QRAM BELƏ ITIRMƏYƏN SU, MILYONLARIN HƏYATINDA BITIB TÜKƏNMƏYƏN ROL OYNAMAĞA DAVAM EDIR…

ƏLIMDƏKI STƏKANI YERƏ QOYDUM. HƏRARƏTIM GETDIKCƏ ARTMAĞA BAŞLAMIŞDI, GÖZLƏRIM TORANLAŞIR, GETDIKCƏ HALSIZLAŞIRDIM. ÖZÜMÜ SƏHRANIN QIZMAR GÜNƏŞI ALTINDA YANIRMIŞ KIMI HISS EDIRDIM. HƏR ADDIMIMI ATDIQCA DABANLARIMIN DƏRISI, SƏHRADA ƏSRLƏRDI GÜNƏŞIN ŞÜALARINA MƏHKUM OLMUŞ QUM DƏNƏLƏRININ YANDIRICI ISTISINDƏN SOYULUR YERINDƏ DƏRIN YARALAR ƏMƏLƏ GƏLIRDI. SƏHRANIN ÜZƏRINDƏ ZENITDƏ DURAN GÜNƏŞ SANKI MƏNI HƏR ADDIMIMDA IZLƏYIRMIŞ KIMI ARDIMCA GƏLIR VƏ VAR GÜCÜ ILƏ AYDIN SƏMADAN ÖZ YANDIRICI ŞÜALARINI MƏNƏ TƏRƏF DOĞRULDURDU. GÜNƏŞIN ISTISINDƏN BƏDƏNIMDƏKI SULARDA BUXARLANIB AZADLIĞA CIXIRDILAR. SƏHRANIN ÜZƏRI ƏSLINDƏ SU ILƏ DOLU IDI. YALNIZ BU SULAR BUXAR HALINDA AZADCASINA ÖZ-ÖZÜNƏ GƏZIŞIRDILƏR VƏ MƏNIM ÜÇÜN ƏLÇATMAZ IDILƏR.

Buxar günəşin qızmar şüaları ilə birlikdə havanı lap acınacaqlı dərəcədə isitiləşdirirdi. Get-gedə nəfəs almaq belə çətin olurdu. Bütün bu acılar mənə cəhənnəmdəki qır qazanında olduğumu hiss etdirir, icmək üçün su arayışlarımı daha da vacibləşdirirdi. Amma bu hələlik qeyri-mümkün görünürdü.  Susuzluqdan dodaqlarımda əmələ gəlmiş iri çatlardan artıq qan axırdı. Bütün bu acılara dözməyib ağlamağa başladım. Ancaq gözlərimdən süzülən su damlaları da dodaqlarıma çatmamış buxarlanıb quruyurdular. Geridə isə yalnız dalğaların zərbəsindən özünü qoruya bilməyən sərt qayaların üzərində əmələ gələn çopurların izləri qalırdı. Qəribə idi. Gündəlik həyatda hər sevincimizdə, qəmimizdə gözlərimizdən su gəlir ancaq biz onun fərqinə varmadan, hikmətini anlamdan yaşamağa davam edirik.

Geriyə dönüb qum üzərinə həkk olmuş addımlarıma baxdıqda yalnızca məndən gerdidəki üç-dörd addımın izlərini görmək mümkün idi. Amansız qum fırtınası bu cəhənnəmdəki atılmış hər insan izini göyə sovurub, səhranı lap cansızlaşdırırdı. Sonuncu addım izlərimin yerləridə ehmalca qum dənələri ilə doldurulub yaşam izləri itirilirdi. Beləliklə nə qədər yol qət etdiyimin fərqinə varmadan davam edirdim. Çünki, səhrada getdiyin bir neçə addım insanın gözündə neçə-neçə kilometrlərə

bərabərdir. Çünki, ətrafında heç bir dəyişiklik hiss etmədən-sarı qum, mavi səma və qırmızı günəş ilə irəliləmək həqiqətəndə çox çətin işdir. Bütün yol boyu gözlərim yalnız eyni rəngləri gördüyündən yorulub, göz qapaqlarım aşağı sallanmışdı. Ancaq uzaqda artıq nəsə başqa bir rəng görməyə başladım. Bu yaşıl palma, xurma ağacları ilə əhatələnmiş su vadisi idi. Bura həqiqətəndə səhranın cənnəti idi.  Addımlarımı sürətləndirməyə başladım amma bu cənnətə çata bilməmək qorxusu get-gedə məni bürüməyə başlamışdı. Sonda su vadisinin kənarına çatıb suya baş vurdum. Gözlərimi acdıqda həqiqətəndə bədənimin su içində olduğunu gördüm. Yüksək hərarətim səngidiyindən yerini tər əvəz etmişdi. Tər vaistəsilə bədənimdən xaric olan su bütün ağrı-acılarımı özü ilə birlikdə aparmışdı. Özümü bir az yüngülləşmiş kimi hiss etdim. Artıq qorxulu yuxum geridə qalmışdı. Amma bu qorxulu yuxuda suyun dəyərinin daha da fərqinə varmışdım. Bir stəkan suyu içib bütün susuzluq əzabına son qoydum. Özümü yenidən dünyaya göz açmıs kimi hiss edirdim.  Artıq gecə idi…Saatın əqrəbləri qoşalaşıb dayanmışdılar. Gözlərimi yumub yuxuya getdim…

Yuxudan səhərin gec saatlarında oyana bildim. Hərarətim əvvəlkindən daha da yaxşı idi. Xəstəliyim yavaş-yavaş səngiməyə doğru gedirdi. Yerimdən ehmalca qalxıb dünənki

yuxu haqqında düşünməyə başladım. Su haqqında artıq daha dərin elmi biliKə yiyələnmək istəyirdim. Məktəb dərsliyimi açdım. Mündəricatda ən kiçik başlıq su haqqında olan bölməni göstərirdi. Səhifələri bir birinin ardınca vərəqlədikcə təbiətdə olan maddələr haqqında olan məlumatlarıda ehmalca gözdən keçirirdim. Su bölməsinə çatdıqda səhifədə çox kiçik bir tərif verilmişdi. Rəngsiz, dadsiz , iysiz maddə. Maraqlı idi. Əslində rəngsiz görünən bu ən sadə maddə günəş şüaları ilə bir ahəngdə dünyanın ən gözəl rənglərini özündə birləşdirən göy qurşağı əmələ gətirir. Dadsiz olsada onu hər dəfə içəndə bütün dünyanın dadlı neymətlərindən daha zövq və həvəslə içirik. Dərslikdə su haqqında yazılan fiziki xüsusiyyətləri bununla da kifayətlənirdi. Kimyəvi xassələri bölməsini oxumağa başladım. Burda da vəziyyət əvvəlkindən heç də fərqli deyildi. Yazılan sözlər bundan ibarət idi. Sadə birləşmə olub-iki hidrogen və bir oksigen atomunun birləşməsindən əmələ gəlir. Ancaq Bu qədər həyatımızın hər anında böyük rol oynayan suyun fəaliyyəti o qədərdə sadə deyildi. Canlılar üçün yaşama mühiti formalaşdırmasından başlayaraq insan orqanizminin böyük hissəsinin sudan ibarət olmasına qədər həyat üçün böyük rollar oynayırdı. Düşündükcə su həqiqətəndə həyat mənbəyidir. Əslində o, da bizim kimi canlı varlıqdı. Insanlar kimi o da öz fərqli simaları ilə daima ətrafımızdadır və bizimlə eyni həyatı paylaşır. Onunda bizim kimi yaşama

dövrü var. Bəlkə də bu iki müxtəlif maddənin birləşdiyi an onun və eyni anda başqa həyatların başlanğıcıdı. Çünki, yalnız maye halında olan su canlılar üçün həyat anlamını daşıyır və ondan bəhrələnirlər. Bəlkə də bu maddələrdən birinin ayrılması isə su həyatının sonu, eyni zamanda da onun başqa simada yaşamını davam etdirməsi deməkdir. Ancaq su bizdən fərqli olaraq ölümsüzdür. O, daima var və var olacaq.

Anidən alnımdan düşən tər damlası kitaba doğru yönəlmiş bütün diqqətimi dagitdi. Ehmalca kitabı bağlayıb rəfə qoydum.

# Save a tree.

## Don't print these pages unless it's really necessary

**To find more information about Book, you can visit orkhanmammadli.kitabxana.net or Fan Page at Facebook.com Orkhan Mammadli**